BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT – 342; 324.4; 342.8; 342.84; 324**

# AZƏRBAYCANIN KONSTİTUSİYA TARİXİNDƏ XALQ HAKİMİYYƏTİNİN HÜQUQİ TƏNZİMİ

**C.A.SÜLEYMANOV**
***Azərbaycan Respublikası DİN-in Polis Akademiyası***
***jeyhunsa@hotmail.com***

*Bəşəriyyətin tarixi hər bir xalq üçün böyük sərvətdir. Bu tarixi unudan cəmiyyət xoşbəxt gələcəyini təmin edə bilməz. Bu gün ictimai həyatın müxtəlif sahələrində geniş istifadə olunan demokratiya (xalq hakimiyyəti) məfhumu da qədim və zəngin tarixə malikdir. Antik dünyada yaranan və 2500 ildən çox tarixi olan demokratiyanı öyrənmədən ona iddia etmək düzgün olmazdı. Bəşər sivilizasiyasının ayrılmaz tərkib hissəsi olan qədim dövlətçilik təcrübəsinə malik Azərbaycan xalqının da tarixində demokratik ənənələrin formalaşması və bəşər cəmiyyətinin inkişafına böyük töhfə verməsi tarixi həqiqətdir. Ölkəmizdə demokratiyanın gələcək inkişafında, qloballaşan dünyada Azərbaycanın layiqli yer tutmasında bu ibrətamiz tarixin öyrənilməsinin böyük əhəmiyyəti danılmazdır.*

**Açar sözlər:** xalq, hakimiyyət, seçkilər, xalq suverenliyi, demokratiya

Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan cəmiyyəti qədim dövrlərdən başlayaraq bu günə qədər zəngin bəşəri dəyərləri, demokratik, humanist, xeyirxah, ədalətlilik ənənələri ilə daimi seçilmişdir. Məsələn, qədimdə, Manna dövlətinin ilkin dövrlərində dövlət hakimiyyəti sistemində mövcud olan Ağsaqqallar Şurası o dövr üçün xarakterik olan qeyri-məhdud hökmdar hakimiyyətinin məhdudlaşdırılması baxımından önəm daşıyırdı və respublika dövlət idarəçilik formasının elementlərini özündə ehtiva edirdi. Eləcə də şəhər əhalisinin hüquqlarının müdafiəçisi kimi çıxış edən əxilər qardaşlıq təşkilatının mövcudluğunu, o cümlədən orta əsrlərdə Azərbaycan ərazilərini əhatə edən Hülakilər dövlətinin ilkin dövrlərində dövlət başçılarının ali Monqol qurultayında seçilməsini, Səfəvilərin hakimiyyəti dövrlərində dövlət idarəçilik sistemində məşvərətçi statusa malik olan “Məclisi-Əla”nın (Ali Məclisin) dövlət həyatının mühüm məsələləri ilə bağlı qərarların qəbul edilməsində hökmdar iradəsinə təsirini müasir demokratik idarəçilik sisteminin elementləri kimi qiymətləndirmək olar. Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yuxarıda qeyd olunan və digər demokratik ənənələrin mövcudluğuna

baxmayaraq xalq hakimiyyəti termini ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il İstiqlal Bəyannaməsində öz hüquqi ifadəsini tapır.

Bu mühüm tarixi sənəd Konstitusiya aktı statusuna malik olan Azərbaycan Cümhuriyyətinin ilk hüquqi sənədi idi.

İstiqlal Bəyannaməsində müstəqil Azərbaycan dövlətinin yarandığı (xalq cümhuriyyəti formasında) bəyan olunmuş, onun hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdı. Burada demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyət bölgüsü kimi prinsiplərin dövlət fəaliyyətinin əsasını təşkil etməsinin bəyan edilməsi suveren, demokratik, hüquqi dövlət yaradılması istəyini nümayiş etdirirdi.

Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsində göstərilir ki, "...Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tamhüquqlu müstəqil bir dövlətdir. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir".

Xüsusilə vurğulamaq yerinə düşər ki, bu tarixi sənəd yalnız xalqın hakimiyyətini bəyan etməklə məhdudlaşmır. Burada xalq hakimiyyətinin həyata keçirilmə mexanizmləri də müəyyənləşdirilir. AXC Konstitusiya Aktı ölkədə xalq hakimiyyətinin həyata keçirilməsinin bilavasitə və nümayəndəli formalarını təsis edirdi. Belə ki, Bəyannamənin 6-cı bəndində deyilir ki, "Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumət durur".

Konstitusiya Aktında bəyan olunan müddəaları reallaşdırmaq üçün Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası parlamentin yaradılması haqqında qanun və 1919-ci il iyulun 21-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti - Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə qəbul etmişdir. Bu əsasnaməyə görə Məclis cinsindən asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşlarının bərabər, birbaşa və gizli səsvermə yolu ilə iştirak etdiyi seçkilər vasitəsi ilə seçməli idi (6, 285).

AXC Konstitusiyasının qəbul edilməsində, dövlət quruculuğunda, qanunçuluğun möhkəmləndirilməsində, hüquq institutlarının təşəkkülündə böyük əhəmiyyət kəsb edə biləcək Müəssislər Məclisinə seçkilər 1920-ci il aprelin 20-nə təyin edilmişdi. Lakin 1920-ci ilin yazından başlayaraq yaranmış böhran seçkilərin keçirilməsinə imkan vermədi (6, 292).

AXC dövründə qəbul olunan Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti, hökuməti və bayrağı haqqında konstitusiya xarakterli qanunlar və digər siyasi-hüquqi sənədləri müəyyən qədər Azərbaycanın Konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmək olar. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cüm-

huriyyəti süquta uğradı, Azərbaycanda sovetlər hakimiyyəti quruldu və Azərbaycan Sovet Sosialist Respublikası yarandı. 1921-ci il mayın 19-da I Ümumazərbaycan sovetlər qurultayında Azərbaycan SSR-in ilk Konstitusiyası qəbul edildi. Bu konstitusiya sovetlər ideyası əsasında fəaliyyət göstərir, Azərbaycanda sosializm cəmiyyətinin qurulmasını bir vəzifə olaraq qarşıya qoyur, respublikada sovet hakimiyyətinin qələbəsini, sovet hakimiyyətinin simasında proletariatın diktaturasını, torpaq, sənaye, bank və sairlərin milliləşdirilməsini qanuniləşdirirdi. Konstitusiya 5 bölmə, 15 fəsil və 104 maddədən ibarət idi. Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının "Ümumi müddəalar" adlanan birinci bölməsində göstərilir ki, Azərbaycan SSR ərazisində bütün hakimiyyət şəhər və kənd sovetlərində birləşən ölkənin bütün zəhmətkeş əhalisinə məxsusdur.

Azərbaycan SSR-in 1921-ci il Konstitusiyası ölkə zəhmətkeşlərinin hakimiyyətini bəyan edir və bu hakimiyyətin həyata keçirilməsində əsas rolu onlar tərəfindən seçilmiş sovetlərə aid edirdi. Burada xalq hakimiyyətinin bilavasitə forması olan referendum nəzərdə tutulmurdu. Bu Konstitusiyaya görə zəhmətkeşlər hakimiyyəti 18 yaşına çatmış Azərbaycan SSR vətəndaşları tərəfindən seçilmiş sovetlər vasitəsilə həyata keçirilməli idi (2).

Lakin həmin dövrün seçki qanunvericiliyinə görə, əhali bilavasitə yalnız kənd və şəhər sovetlərini seçirdi. Seçkilər isə daha çox dekorativ səciyyə daşıyırdı.

Belə ki, sovetlərə nümayəndələrin göndərilməsi bolşevik kommunistlərinin iradəsi əsasında müəyyən edilirdi.

Azərbaycan SSR-nin 1921-ci il Konstitusiyasında xalq anlayışı, zəhmətkeş anlamı ilə əvəz olunurdu. Zəhmətkeşlər deyəndə fəhlələr, əməkçi kəndlilər, öz əməyi ilə yaşayan, ev təsərrüfatları ilə məşğul olan və birincilərin məhsuldar əməyini təmin edən vətəndaşlar və sovet ordusunun əsgər və matrosları nəzərdə tutulurdu.

Yalnız bu kateqoriya şəxslərə seçkilər vasitəsilə öz hakimiyyətini həyata keçirmək ixtiyarı verilirdi. Əhalinin digər təbəqələri siyasi hüquqlardan məhrum idi. Maddi gəlir əldə etmək məqsədi ilə muzdlu əməklə məşğul olanlar, zəhmətsiz gəlir hesabına yaşayanlar, alverçilər, kommersiya vasitəçiləri, kapitalın faizləri, müəssisələrin gəlirləri hesabına yaşayanların seçki hüquqları məhdudlaşdırılırdı.

O cümlədən dini fəaliyyətlə məşğul olanlar, keçmiş polis və jandarm qüvvələrinin işçiləri də siyasi hüquqlardan məhrum edilirdilər. Bu dövrdə AXC dövründə məsul vəzifələr tutmuş şəxslərə, eləcə də müxtəlif partiyaların, siyasi cərəyanların və qrupların üzvlərinə qarşı repressiv tədbirlər görülürdü. Azərbaycanda yerləşən Qırmızı ordu hissələrinin bəzi komandirləri Azərbaycan hökumətinin yerli orqanları ilə hesablaşmır, özlərini əslində müstəmləkəçilər kimi aparırdılar. Hədsiz rekvizisiyalar, müsadirələr, mürtəce əhval-ruhiyyəli hərbiçilərin təhqiramiz hərəkətləri, milli adət və ənənələrin təhqir olunması əhalinin müəyyən hissəsinin bolşeviklərə olan rəğbətini nifrətə çevirmişdi.

Azərbaycanda fəaliyyət göstərən müxtəlif siyasi partiyalar və ictimai birliklər sıxışdırılır, onların üzvləri təqib olunurdu (6, 450)

1936-cı ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olundu. Bu Konstitusiya SSRİ-də istismarçı siniflərin və istehsal vasitələri üzərində xüsusi mülkiyyətin ləğv edildiyini, sosializmin əsaslarının qurulduğunu elan edirdi.

Sonralar qeyd olunurdu ki, guya sosializmin bu konstitusiyada təsbit edilmiş əsasları sovet xalqının sonrakı yaradıcı fəaliyyəti nəticəsində inkişaf etmiş sosializm cəmiyyətinin qurulması üçün təməl oldu. SSRİ-nin 1936-cı il Konstitusiya əsasında 1937-ci il martın 14-də 9-cu fövqəladə Ümumazərbaycan sovetlər qurultayı Azərbaycan SSR-in yeni Konstitusiyasını qəbul etdi.

Yeni Konstitusiya 14 fəsil və 155 maddədən ibarət idi. Əvvəlki Konstitusiyadan fərqli olaraq Azərbaycanın 1937-ci il Konstitusiyası bir sıra yeni fəsilləri – "ictimai quruluş", "Vətəndaşların əsas hüquq və vəzifələri", "Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti oraqnları", "DQMV-nin dövlət hakimiyyəti orqanları", "Məhkəmə və prokurorluq" adlanan fəsilləri ehtiva edirdi.

Əvvəlki Konstitusiyada olduğu kimi, Azərbaycanın 1937-ci il Konstitusiyasında demokratiya və xalq hakimiyyəti terminlərindən istifadə olunmur və Azərbaycan SSR-də bütün hakimiyyətin Əməkçi Deputatlarının Sovetləri şəxsində şəhər və kənd əməkçilərinə məxsus olması bəyan olunurdu (3). Buna baxmayaraq bu Konstitusiya Azərbaycan SSR-in əvvəlki əsas qanunundan fərqli olaraq zəhmətkeşlərin hakimiyyətinin tənzimi sahəsində bəzi pozitiv müddəaları ilə fərqlənirdi. Belə ki, ilk dəfə olaraq, Azərbaycanın Konstitusiya tarixində bilavasitə demokratiyanın əsas institutu sayılan referendum, məhz bu konstitusiyaya daxil edilmişdir. Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının 33-cü maddəsində deyilirdi ki, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti bütün xalqın rəyini soruşur, referendum keçirir (3). Lakin 1937-ci il Konstitusiyası burada referendumu ictimai rəy sorğusu ilə eyniləşdirirdi. Bu isə düzgün sayıla bilməz. Belə ki, referendum və ictimai rəy sorğusu fərqli müstəqil demokratiya institutlarıdır.

Xalq hakimiyyətinin digər bilavasitə institutu sayılan seçkilərə gəldikdə isə 1937-ci il Konstitusiyasının "Seçki sistemi" adlı XII fəslin 141-ci maddəsində qeyd olunurdu ki, bütün əməkçi deputatları Sovetlərinə: Azərbaycan SSR Ali Sovetinə, Naxçıvan MSSR Ali Sovetinə, DQMV Sovetinə, rayon, şəhər kənd sovetlərinə deputatlar-seçicilər tərəfindən gizli səs verməklə ümumi, bərabər və müstəqil seçki hüququ əsasında seçilir.

Bu qanunda bütün hakimiyyət orqanlarının gizli səsvermə yolu ilə ümumi, müstəqil və bərabər seçki hüququ əsasında təşkili nəzərdə tutulurdu.

Yeni seçki sistemini müəyyən edən Konstitusiyanın müddəalarına müvafiq olaraq 18 yaşına çatmış hər bir Azərbaycan vətəndaşı milli, irqi, dini, cinsi mənsubiyyətindən asılı olmayaraq, sosial və əmək vəziyyətindən, təhsilindən və keçmiş fəaliyyətindən asılı olmayaraq seçkilərdə iştirak etmək hüququna malik idilər. 21 yaşına çatmış şəxslərin Respublikanın Ali Sovetinə deputat seçilmək hüququ təsbit olunurdu.

Bundan əlavə, yeni qanunla qolçomaq adlandırılan varlı kəndli təbəqəsinin övladları, əvvəllər imtiyazlı olmuş zadəgan təbəqələrinin nümayəndələri ictimai-faydalı əməklə məşğul olduğu və vicdanla çalışdığı hallarda yaşayış yeri üzrə rayon icraiyyə komitələri tərəfindən onların seçki hüquqları bərpa olunurdu.

Xalq hakimiyyəti kontekstində bu konstitusiyada olan yeniliklərdən biri də əsas qanunda nəzərdə tutulan deputatın geriyə çağırılması institutudur. Konstitusiyanın 150-ci maddəsində qeyd olunurdu ki, hər bir deputat öz işi haqqında və zəhmətkeş deputatlar Sovetinin işi haqqında seçicilər qarşısında hesabat verməyə məcburdur və seçicilərin çoxluğunun qərarı ilə qanunla müəyyənləşdirilmiş qayda üzrə hər bir zaman geri çağırıla bilər (3).

Həmin dövrdə yuxarıda göstərilən demokratiya institutlarının konstitusion təsbiti nə qədər cəlbedici görünsə də, lakin istər seçkilər, sorğu, istərsə də deputatın geriyə çağırılması institutları konyuktur xarakter daşıyırdı.

Azərbaycan dövləti və onun xalqı SSRİ imperiyasında mövcud olan kommunist rejimindən, zorakı marksizm və leninizm ideologiyasından tam asılı vəziyyətdə idi. Seçkilər, rəy sorğusu, deputatın geriyə çağırılması isə SSRİ-nin qeyri demokratik rejimini gizlətmək üçün bir pərdə rolunu oynayırdı.

Bu Konstitusiyanın son fəsillərinin birində (XI fəsil) vətəndaşların əsas hüquqları nəzərdə tutulsa da real həyatda isə xalqımız Stalin diktaturasının terroruna məruz qalmışdır.

XX əsrin 60-cı illərinin sonunda kommunizm cəmiyyətinə sürətli keçid ideyası tədricən iflasa uğramış, 70-ci illərin əvvəllərində "inkişaf etmiş sosializm" cəmiyyəti üçün yeni Əsas Qanunun işlənib hazırlanması zərurəti ortaya çıxmışdı. Layihəsi üzərində uzun işləmələrdən sonra 1977-ci il oktyabrın 7-də Sovetlər birliyində yeni, sayca üçüncü Konstitusiya qəbul edildi. 1978-ci il aprelin 21-də isə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında Azərbaycanın yeni Konstitusiyası qəbul olundu. Bu Konstitusiya 11 bölmə, 22 fəsil və 185 maddədən ibarət idi. Əvvəlki konstitusiyalardan fərqli olaraq Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası öz müsbət və həmin dövr üçün cəsarətli, mütərəqqi müddəaları ilə seçilirdi. Bu Konstitusiyanın "Dövlət və şəxsiyyət" adlanan ikinci bölməsi vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsi, onların yeni məzmunla və əlavə maddi, hüquqi təminatlarla zənginləşdirilməsi ilə səciyyələnirdi. Ən əsası isə ulu öndər Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edən bu Qanunun gerçəkləşdirilməsi üçün ölkədə yaxşı zəmin yaradılmışdır.

İlk dəfə olaraq ölkəmizin Konstitusiya tarixində "xalq hakimiyyəti" və "demokratiya" terminləri məhz Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında qəbul olunmuşdur. Burada deyilirdi ki, Azərbaycan SSR-də bütün hakimiyyət xalqa məxsusdur. Xalq dövlət hakimiyyətini Azərbaycan SSR-in siyasi əsası olan xalq deputatları sovetləri vasitəsilə həyata keçirir (4). Həmin Konstitusiyanın digər maddəsində isə deyilir ki, sovet dövlətinin təşkili və fəaliyyəti demokratik mərkəziyyət prinsipinə: aşağıdan yuxarıyadək bütün

dövlət hakimiyyəti orqanlarının seçkili olması, onların xalqa hesabat verməsi, yuxarı orqanların qərarlarının aşağı orqanlar üçün məcburi olması prinsipinə uyğun surətdə qurulur.

İlk dəfə olaraq məhz bu konstitusiyada xalq hakimiyyətinin bilavasitə demokratiya institutu olan referendum düzgün olaraq ümumxalq səsverməsi kimi təsbit edilmişdir (4).

Bu Konstitusiyanın müsbət tərəflərindən biri də odur ki, o referendumu ictimai rəy sorğusundan və qanun, qərar layihələrinin müzakirəsindən fərqləndirirdi, həmçinin referendumla yanaşı xalq hakimiyyətinin bilavasitə demokratiya forması sayılan qanun və qərar layihələrinin ümumxalq müzakirəsini də ehtiva edirdi.

İlk dəfə məhz bu Konstitusiyada xalq hakimiyyətinin təmin olunmasında mühüm rol oynanan vətəndaşların petisiya hüququ, vətəndaşların siyasi partiyalarda birləşmək hüququ kimi yeni siyasi hüquqlar bəyan olunurdu (4).

Lakin bütün bunlara baxmayaraq bu konstitusiyanı hələ sovet məfkurəsindən, marksizm-leninizm ideologiyasından azad, müstəqil Azərbaycan dövlətinin konstitusiyası adlandırmaq qeyri-mümkün idi.

Bu dövrdə Azərbaycan xalqının suverenliyi, dövlətimizin müstəqilliyi SSRİ imperiyasının kommunist rejimli xarakteri ilə xeyli məhdulaşdırılırdı.

Xalq hakimiyyəti bəyan olunsa da onun institutları olan referendum, seçkilər, deputatların geriyə çağırılması formal xarakter daşıyırdı, vətəndaşlara yalnız bir partiyada - kommunist partiyasında birləşmək imkanı verilirdi, sərbəst toplaşmaq azadlıqları ciddi təqib olunurdu.

SSRİ imperiyasının məcburi ideologiyası, zorakılıq siyasəti Azərbaycan dövlətinin tam müstəqil olması, xalqın suveren hüquqlarını təmin etmək imkanlarını xeyli məhdudlaşdırırdı. Bütün bunlara baxmayaraq ulu öndər Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti illərinə təsadüf edən bu Konstitusiya və onun əsasında ölkədə aparılan siyasət - Azərbaycan xalqının sosial-iqtisadi, mədəni və elmi-texniki inkişafı, vətəndaşların maarifləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması ilə səciyyələnirdi.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında bəyan olunan demokratik institutlar, ölkəmizdə dövlət quruculuğu, sosial-iqtisadi və mədəni, elmi-texniki sahələrdə görülən böyük işlər XX əsrin sonunda Azərbaycanda dövlət müstəqilliyinin və xalq suverenliyinin bərpa olunması, eləcə də demokratik institutların yaranması və möhkəmləndirilməsi üçün əsaslı zəmin yaratmış oldu.

XX əsrin sonunda beynəlxalq aləmdə baş verən mühüm hadisələr keçmiş sovetlər məkanına da öz təsirini göstərdi və 70 ildən artıq SSRI dövlətinin tərkibində yaşayan xalqlar öz müstəqilliyi uğrunda mübarizəyə başladı. Bu proses 80-cı illərin sonunda xüsusilə kəskinləşdi və sovetlər dövlətinin dağılması beynəlxalq aləmdə yeni müstəqil dövlətlərin yaranmasına səbəb oldu. Belə dövlətlərdən biri də Azərbaycan Respublikasıdır.

XX əsrin sonunda SSRİ-nin dağılmasının labüdləşdiyi bir məqamda – 1991-ci il avqustun 31-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannamə" qəbul edildi. Lakin bu dövrdə Azərbaycan xalqı "de-yure" öz müstəqilliyini qəbul etsə də, "de-fakto" ölkədə "marionet" rejim yarandı. 18 oktyabr 1991-ci il tarixində Azərbaycan Respublikasının Milli Şurası (Ali Soveti) dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Lakin həmin dövrdə siyasi hakimiyyətdə təmsil olunan rəhbər şəxslər hələ də SSRİ-nin yenidən bərpa olunması ümidləri ilə yaşayırdı və bu Aktın referenduma çıxarılmasını bütün səyləri ilə ləngidirdilər. Yalnız SSRİ-nin denonsasiyası haqqında müqavilə imzalandıqdan sonra onlar xalqın tələbi ilə Konstitusiya Aktının təsdiqinin referenduma çıxarılmasına məcbur oldular.

Xalqımız tərəfindən 29 dekabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın təsdiq edilməsi respublikanın müstəqil dövlətçiliyinin hüquqi əsasını möhkəmləndirdi. Yeni Konstitusiyanın hazırlanması üçün başlanğıc sayılan bu Akt respublikanın dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarının təsbitini nəzərdə tuturdu.

Bu Konstitusiya Aktının preambulasında deyilir ki, Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq bu Aktı qəbul edir.

Bu gün bəzi insanlar bu müddəaya əsaslanaraq belə bir fikir söyləyirlər ki, Azərbaycanda parlamentli respublika idarəçilik forması olmalıdır.

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, Konstitusiya Aktı heç də hüquqi varisliyi nəzərdə tutmur, burada prinsip və ənənələrin varisliyindən söhbət gedir və bu prinsiplər hazırkı Konstitusiyamızda ehtiva olunur. Azərbaycanın yeni konstitusiya layihəsi hazırlanan zaman ulu öndər Heydər Əliyev belə bir fikir söyləmişdir: "Biz Konstitusiyamızda elə bir idarəetmə forması qəbul etməliyik ki, həm ümumbəşəri dəyərləri, xarici ölkələrin müsbət təcrübəsini, o cümlədən Azərbaycan xalqının dəyərli dövlətçilik təcrübəsini özündə ehtiva etməlidir" (5).

Digər tərəfindən ADR-in tarixi bizim üçün yalnız burada qəbul olunan müsbət, demokratik ənənələri ilə deyil, həm də o dövrün çatışmazlıqlarının da öyrənilməsi üçün çox ibrətamizdir. ADR-in idarəçilik sistemində olan boşluq, qeyri sabitlik, ziddiyyətlər ölkənin müstəqilliyinin zəifləməsinə və süqutuna xeyli dərəcədə öz təsirini göstərmişdir. Elə müasir dövrdə də bəzi xarici ölkələrin təcrübəsi göstərir ki, parlamentli respublika idarəçilik forması tez-tez hökumət böhranına səbəb olur.

Hesab edirəm ki, yeni müstəqilliyini əldə etmiş dövlətlər üçün bu forma daha çox dərəcədə qeyri sabit və siyasi böhranlarla müşahidə olunan siyasi hakimiyyətin yaradılmasına səbəb ola bilər.

Azərbaycanda 1991-1993-cü illərdə mövcud olan siyasi böhran ölkəmizi ağır, qeyri-sabit vəziyyətə saldı, vətəndaş müharibəsi ilə üzləşdirdi və nəinki, konstitusiyanın qəbul edilməsi mümkün oldu, hətta müstəqilliyimizin itirilməsi təhlükəsi yarandı. Belə bir ağır vəziyyətdə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin böyük və yorulmaz siyasəti nəticəsində ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, dövlət müstəqilliyi qorundu, erməni təcavüzünün qarşısı alınaraq atəşkəs əldə edildi. 1993-1994- cü illərdə ölkə daxilində baş verən terror aktlarının, dövlət çevrilişlərinə cəhdlərin qarşısı alındı və müstəqil Azərbaycan Konstitusiyasının qəbulu üçün zəmin yaradıldı.

2 may 1995-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibini təsdiq etdi. Dövlət komissiyası ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiyanın layihəsini hazırladı və bu layihə ümumxalq müzakirəsinə vermək üçün, 1995-ci il oktyabrın 15-də mətbuatda dərc edildi. Azərbaycan ictimaiyyəti yeni konstitusiya layihəsinin müzakirəsində böyük fəallıq göstərərək konstitusiya layihəsinə 2450 təklif verdi. 1995-ci il noyabrın 12-də keçirilən referendumda müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası qəbul olundu. Bu Konstitusiyanın memarı ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək: "...Baxmayaraq ki, Azərbaycan xalqının 80 illik Konstitusiya tarixi vardır, bu gün biz müstəqil Azərbaycanın ilk Konstitusiyasını qəbul etdik..." (5). Ümumxalq səsverməsi bütün seçki dairələri üzrə səs verənlərin yüksək fəallığı şəraitində keçmişdir. Səsvermədə iştirak etmiş 3566277 seçicidən 3267538 nəfəri, yəni, 91,9 faizi təklifə "Hə" cavabı verərək müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiya layihəsinin qəbul olunmasına tərəfdar çıxmışdır. Beləliklə, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik taixində müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olundu və 27 noyabr 1995-ci ildə qüvvəyə mindi.

Tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olan, ölkəmizin siyasi-iqtisadi və sosial-mədəni həyatında baş verən dəyişikliklərin qanuni nəticəsi olaraq qəbul edilən Konstitusiyada respublikamızın müstəqilliyinin qorunub möhkəmləndirilməsinə, dövlətçiliyin inkişafına, insan və vətəndaş hüquqlarının təmin edilməsinə xüsusi diqqət ayrılmışdır. Konstitusiyamızın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o, dövlətçiliyimizin inkişafını istiqamətləndirməklə yanaşı, həm də xalqımızın uzun illər boyu həsrətində olduğu, ən nəhayət, ağır itkilər bahasına olsa da, əldə etdiyi və bu gün qətiyyətlə qorumağa və inkişaf etdirməyə çalışdığı suverenliyi qanunvericilik yolu ilə təsbit etdi. Dövlətimizin Əsas Qanunu Azərbaycanın beynəlxalq aləmdə bərabərhüquqlu subyekt olduğunu sübuta yetirdi və çoxəsrlik dövlətçilik ənənlərimizə əsaslanaraq, yeni demokratik, hüquqi və dünyəvi dövlətin qurulmasına geniş təminat verdi.

Müstəqil Azərbaycanın 1995-ci il Konstitusiyası həm daxili, həm də xarici strukturuna görə əvvəlki konstitusiyalardan əsaslı şəkildə fərqlənirdi.

Birincisi, bu müstəqil dövlətin konstitusiyasıdır və bu əsas Qanun Azərbaycan xalqının suverenliyini bəyan edirdi.

İkincisi, yeni konstitusiyamız marksizm – leninizm məfkurəsindən, kommunizmin-totalitar rejimin təsirindən uzaq bir konstitusiyadır.

Üçüncüsü, bu konstitusiya özündə həm insan hüquqları, xalq suverenliyi, hakimiyyətlər bölgüsü, parlamentarizm, konstitusiya məhkəmə nəzarəti mexanizmi, Prezidentlik institutu, yerli demokratiya və s. kimi ümumbəşəri dəyərləri, həm də xalqımızın dövlət quruculuğu sahəsində əldə etdiyi müsbət təcrübəni inteqrasiya edir.

Dördüncüsü, bu konstitusiya birbaşa hüquqi qüvvəyə malikdir və özündə ehtiva etdiyi ümumbəşəri dəyərlərin real təmin olunma mexanizmlərini müəyyən edir. Azərbaycanda yaşayan hər kəs konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlarının təmin olunmasını dövlətdən tələb edə bilər;

Beşincisi, bu konstitusiya ümumxalq səsverməsi (referendumla) yolu ilə qəbul edilmişdir.

İlk dəfə olaraq Azərbaycanın Konstitusiya tarixində ölkəmizin 1995-ci il Konstitusiyasında xalq suverenliyini, xalq hakimiyyətinin həyata keçirilməsi formalarını tənzimləyən "Xalq hakimiyyəti" adlı xüsusi bir fəsil yarandı.

Xalq hakimiyyətinin əsaslarını tənzimləyən normaların əsas qanunun birinci fəslində yerləşdirilməsi bir daha təsdiq edir ki, Azərbaycanda xalqın iradəsi, maraqları hər şeydən üstündür, alidir.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iyunun 5-də keçirilən ilk iclasında, yeni konstitusiya layihəsini hazırlayan komissiyanın sədri Ümummilli lider Heydər Əliyev öz nitqində qeyd edir ki, "Konstitusiya birinci növbədə dövlətin, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir" (5).

Bu gün biz qətiyyətlə deyə bilərik ki, ümummilli liderimiz Heydər Əliyevin bu ideyaları həm Konstitusiyamızın, həm də dövlət aparatının təşkilinin və fəaliyyətinin əsasını təşkil edir.

Xalq hakimiyyətinin tənzimi sahəsində müstəqil Azərbaycan Respublikası Konstitusiyasının aşağıdakı fərqli xüsusiyyətlərini göstərmək olar:

1) burada xalq hakimiyyətinin hüquqi əsaslarını tənzimləyən "Xalq hakimiyyəti" adlı yeni fəslin yaranması müşahidə olunur;
2) konstitusiya sosial hakimiyyətin bir növü kimi "xalq hakimiyyəti"nin mövcudluğu faktını bəyan etməklə məhdudlaşmır. Əsas Qanunda xalq hakimiyyətinin suveren xarakteri ifadə olunur;
3) yeni Konstitusiyada "xalq" anlayışının hüquqi definisiyası verilir. Əsas Qanunun 1-ci maddəsinin 2 hissəsində deyilir ki, Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və ondan kənarda

yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikasının vətəndaşlarından ibarətdir;

4) ilk milli Konstitusiyamız xalqın iradəsinin ifadəsi formasına görə xalq hakimiyyətinin həyata keçirilməsinin iki əsas, bilavasitə və nümayəndəli demokratiya formalarını fərqləndirir;
5) yeni Konstitusiya xalq hakimiyyətinin həyata keçirilməsinin aşağıdakı bilavasitə demokratiya institutlarını təsis edir: referendum, seçkilər, xalqın qanunvericilik təşəbbüsü hüququ;
6) xalq hakimiyyətinin nümayəndəli demokratiya formasına gəldikdə isə Azərbaycanın yeni Konstitusiyasında parlamentarizm institutuna mühüm yer verilmişdir;
7) İlk dəfə olaraq Azərbaycanın Konstitusiya tarixində yeni Əsas Qanunda ölkəmizdə yerli demokratiyanın yaradılması bəyan edilir və yeni özünüidarəetmə sisteminin əsasları müəyyən olunur;
8) Xalq hakimiyyətinin toxunulmazlığı və onun mənimsənilməsinin yolverilməzliyi məsuliyyəti dövlətimizin yeni Konstitusiyası səviyyəsində möhkəmləndirilmişdir.

Yuxarıda qeyd olunan səciyyəvi cəhətlər müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının demokratik xarakterini bir daha təsdiqləyir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009.
2. Azərbaycan Respublikasının 1921-ci il Konstitusiyası. www.preslib.az
3. Azərbaycan Respublikasının 1937-ci il Konstitusiyası. www.preslib.az
4. Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası. Bakı, 1980.
5. Qanunçuluq №1-2. Bakı, 1996.
6. Xəyyam İsmayılov: Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2006.

## ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ НАРОДОВЛАСТИЯ В ИСТОРИИ КОНСТИТУЦИИ АЗЕРБАЙДЖАНА

**Дж.А.СУЛЕЙМАНОВ**

**РЕЗЮМЕ**

В статье отмечается, что в истории Азербайджанского государства в 1921, 1937, 1978 и 1995 годах были приняты несколько Конституций. Однако началом истории юридической конституции нашего государства можно считать правовые акты конституционного характера, принятые в 1918-1920 гг. Азербайджанской Демократической Республикой. Впервые в истории нашей страны термин «народовластие» был юридически закреплен в Конституционном Акте о независимости Азербайджана от 1918 года.

После лишения государственной независимости и образования Советской власти в 1921, 1937 и 1978 годах были приняты конституции АССР.

Среди вышеуказанных законов, особо следует выделить Конституцию 1978 года, которая отличается некоторыми прогрессивными идеями в области регулирования основ народовластия.

В конце XX века после обретения государственной независимости в 1995 году была принята новая конституция Азербайджанской Республики, которая содержит отдельную главу относительно регулирования основ народовластия, основных форм осуществления народного суверенитета. Согласно данной конституции единственным источником государственной власти в Азербайджане является народ Азербайджана.

**Ключевые слова:** народ, власть, выборы, народный суверенитет, демократия

## THE LAWFUL REGULATION OF PEOPLEPOWER IN THE HISTORY OF AZERBAIJAN CONSTITUTION

**J.A.SULEYMANOV**

### SUMMARY

The article shows that several constitutions were adopted in the history of Azerbaijan government in 1921, 1937, 1978 and in 1995. However, the beginning of the juridical constitution of our state is considered the legal acts of constitutional character adopted in 1918-1920 by the Azerbaijan Democratic Republic. For the first time in the history of our country the term "people's power" was juridically fixed in the Constitutional Act about the Independence of Azerbaijan in 1918.

Constitutions of the Azerbaijan Soviet Socialist Republic were adopted in 1921, 1937 and 1978 after the formation of the Soviet state.

The Constitution of 1978 is more remarkable with its progressive ideas in the field of the regulation of people's power.

The new constitution of the Independent Azerbaijan Republic was adopted at the end of the XX century, after the Republic regained its independence. All the Azerbaijani people took active parts in the discussion of the Draft of the present Constitution.

According to the new Constitution all power was given to the people, to all the citizens of Azerbaijan and the Constitution guarantees equal rights to all the citizens of the Azerbaijan Republic.

**Key words:** people, power, elections, sovereignty, democracy